

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (23.200)

22 fevral 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21- də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.

Görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunulub.

## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə Talıbov Tariyel Hüseynəli oğlu **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 fevral 2019-cu il*



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yaponiyanın ölkəmizdəki səfiri ilə görüşüb

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb.

Ali Məclisin Sədri Yaponiya hökumətinin dəstəyi ilə Ordubad rayonundakı Azadkənddə su təchizatı sisteminin inşası layihəsinin həyata keçirilməsini qarşılıqlı əlaqələrin nəticəsi kimi dəyərləndirib və səfirə təşəkkürünü bildirib. Ali Məclisin Sədri deyib ki, hər il muxtar respublikada meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, rayon mərkəzlərində və ətraf kəndlərdə yeni içməli su və kanalizasiya sistemləri qurulur. Bu il Ordubad rayonunda da içməli su və kanalizasiya sistemləri layihəsi başa çatdırılacaqdır.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Yaponiya arasında təhsil və iqtisadi sahədəki əlaqələrə diqqəti çəkən Ali Məclisin Sədri muxtar respublika nümayəndələrinin Yaponiyada keçirilən müxtəlif təlim və seminarlarda iştirakından bəhs edib. Ali Məclisin Sədri 2016-cı ildə Yaponiyanın Okinava Prefekturasının nümayəndə heyətinin Naxçıvana səfərini və bu zaman həyata keçirilən qarşılıqlı tədbirləri xatırladıb, layihənin həyata keçirilməsində və fəaliyyətində səfirə uğurlar arzulayıb.

Səfir Teruyuki Katori Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni Naxçıvana səfərindən məmnunluğunu bildirib. Yaponiya-Azərbaycan əlaqələrinin iqtisadi, təhsil və mədəniyyət sahələrində inkişaf etdiyini bildirən səfir muxtar respublikada su təchizatı sistemi layihəsinin həyata keçirilməsi barədə danışıb, əlaqələrin genişlənməsində səylərin artırılacağını vurğulayıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yaponiya səfiri Naxçıvanın tarixi abidələri, sənaye, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub, qrant müqaviləsinin imzalanmasında iştirak edib



***Fevralın 21-də Naxçıvan Muxtar Respublikasında səfərdə olan Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.***

Naxçıvan Avtomobil Zavodunda olan qonağa məlumat verilib ki, zavodda tələbata uyğun, eləcə də sifariş əsasında 15 modeldə avtomobil istehsal olunur.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq qonaqlarda maraq doğurub.

* * *

Fevralın 21-də Ordubad rayonunun Azadkənd kəndinin su təchizatı sisteminin inşası layihəsi üzrə qrant müqaviləsinin imzalanması ilə bağlı tədbir keçirilib.

Tədbirdə çıxış edən Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, 50 minə yaxın əhalisi olan Ordubad rayonunda 1 şəhər, 3 qəsəbə və 43 kənd vardır. Əhalinin əsas məşğuliyyəti meyvəçilik, tərəvəzçilik, əkinçilik, heyvandarlıq və arıçılıqdır.

Elşad Məmmədov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Ordubad rayonunun hərtərəfli inkişafı təmin edilib. İmzalanacaq yeni müqavilənin və əməkdaşlığın əhəmiyyətini vurğulayan icra başçısı bu münasibətlə səfirə minnətdarlığını bildirib.

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori çıxışında qeyd edib ki, bu layihə Azərbaycan hökumətinin Yaponiya ilə diplomatik əlaqələrin qurulmasından etibarən Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" qrant yardımı proqramı çərçivəsində reallaşdırılır. Bu layihələrin həyata keçirilməsi əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi məqsədi daşıyır. Bundan əvvəl də Naxçıvanda su təchizatı sistemlərinə aid birgə layihələr reallaşdırılıb. Bu, sayca üçüncü layihə olacaqdır.

"Konstitusiya" Araşdırmalar Fondunun Prezidenti Əlimməmməd Nuriyev çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyətindən danışıb.

Sonra Ordubad rayonunun Azadkənd kəndində su təchizatı sisteminin inşası layihəsi üzrə qrant müqaviləsi imzalanıb.

* * *

Həmin gün Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.





## Teruyuki Katori: Naxçıvan iqtisadi baxımdan azad və öz iqtisadi inkişafını təmin edən bir diyardır



Ordubad rayonunun Azadkənd kəndində həyata keçirilməsi planlaşdırılan layihə su və suvarma sistemlərinin təchizatı layihəsidir. Altı ay ərzində başa çatdırılması nəzərdə tutulan belə layihələrin gələcəkdə də davam etdirilməsi planlaşdırılır.

Bu sözləri "Şərq qapısı" qəzetinə müsahibəsində Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori deyib.

"Naxçıvan iqtisadi baxımdan azad və öz iqtisadi inkişafını təmin edən bir diyardır. Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı və turizm sahəsində böyük potensiala malikdir", – deyən səfir vurğulayıb ki, biz bu sahələrin inkişaf etdirilməsi istiqamətində dəstək göstərməyə həmişə hazırıq.

Naxçıvan haqqında təəssüratlarını bizimlə bölüşən səfir deyib:

– Naxçıvanın təmiz havası, gözəl təbiəti vardır. Bu diyarın dağlarla əhatə olunması ona xüsusi gözəllik verir. Bu da Naxçıvanda turizmin inkişafına təkan verə biləcək mühüm amillərdəndir.

✍ **Nail ƏSGƏROV**

# Görkəmli bioloq alim, flora və faunanın yorulmaz tədqiqatçısı



*Azərbaycan elmi ictimaiyyətinin yaxşı tanıdığı gözəl ziyalı, bioloq alim, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Tariyel Talıbovun 70 yaşı tamam olur.*

Tariyel Talıbov 1949-cu il fevralın 22-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Siyaqut kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1966-cı ildə Siyaqut kənd orta məktəbini, 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini bitirmişdir. Universiteti bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elm Mərkəzinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuş, 1974-cü ildən Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universiteti) Kimya-biologiya kafedrasında baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 1989-2003-cü illərdə Naxçıvan Dövlət Universitetində Botanika kafedrasına rəhbərlik etmişdir.

Tariyel Talıbov istehsalatdan ayrılmadan Azərbaycan Elmlər Akademiyası Genetika və Seleksiya İnstitutunun aspiranturasına qəbul olunmuş, 1986-cı ildə “Naxçıvan MSSR-də ərik genofondunun qiymətləndirilməsi” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi, 2003-cü ilin mart ayında isə Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunda “Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsi, 2008-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı almışdır.

Bütün uğurlarına, elmi işlərinin müvəffəqiyyətli nəticələrinə baxmayaraq, professor Tariyel Talıbov respublikanın paytaxtına can atmamış, muxtar respublikada yaşayıb-yaratmışdır. Elmi nailiyyətləri, rəhbərlik qabiliyyəti nəzərə alınaraq 2003-cü ildə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru vəzifəsinə təyin olunmuşdur və indi də bu vəzifədə çalışır.

Tariyel Talıbov Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyinə, faydalı bitki sərvətlərinə, nadir, endemik, relikt, nəsli kəsilmək təhlükəsi altında olan bitki növlərinə, onların səmərəli istifadəsinə və mühafizəsinə aid 300-ə yaxın elmi əsərin müəllifidir. İkicildlik “Naxçıvan Ensiklopediyası” (müəlliflər qrupu ilə), “Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması”, 2 cilddən ibarət “Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı”, “Naxçıvan abidələri ensiklopediyası” (müəlliflər qrupu ilə), “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri” (Azərbaycan və rus dillərində), “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” (müəlliflər qrupu ilə), “Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri”, “Naxçıvan Muxtar Respublikasının zəhərli bitkiləri” həmin əsərlər içərisində xüsusi yer tutur. Alimin bəzi əsərləri xarici jurnallarda nəşr edilmişdir.

Tariyel Talıbovun Naxçıvan Muxtar Respublikasının faunasına dair “Naxçıvan Muxtar Respublikasında nadir heyvan növləri və onların genofondunun qorunması”, “Azərbaycanda Asiya muflonu və bezoar keçisinin qorunma strategiyası”, “Naxçıvan Muxtar Respublikasının onurğalılar faunasının taksonomik spektri”, “Naxçıvan Muxtar Respublikasının faunası: Balıqlar və suda-quruda yaşayanlar” və digər kitabları mühüm elmi əhəmiyyət kəsb edir.

Elmi-tədqiqat işləri zamanı toplanılan minlərlə şəxsi herbari nüsxəsi əsasında Naxçıvan Dövlət Universitetində “Herbari fondu” yaradılmış, universitetin Botanika kafedrasının tədris-təcrübə sahəsində 27-dən çox nadir və ya məhv olmaq təhlükəsi altında olan bitki becərilmişdir.

Görkəmli alim və tanınmış pedaqoq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Ordubad ərazisində nadir bitki və onurğalı növlərini tədqiq etmiş, bir çox taksonlar aşkar edərək qoruq və yasaqlıqların yaradılması vacibliyini elmi cəhətdən əsaslandırmışdır. O, Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyinin təbii ehtiyatı bol olan dərman, texniki, bəzək bağçılığı və qida əhəmiyyətli növləri də tədqiq etmiş, səmərəli istifadə olunmaları üçün çalışmış və flora biomüxtəlifliyinin nadir növlərinin genofondunun qorunması üçün təkliflər vermişdir.

Tariyel Talıbov 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Aspirant və dissertantlarından 7-si biologiya üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmiş, məsləhətçi olduğu 2 nəfərdən biri aqrar elmlər üzrə elmlər doktoru dissertasiya işini müdafiə etmiş, bir nəfər isə biologiya üzrə elmlər doktoru dissertasiya işini müdafiə üçün təqdim etmişdir. Bu vaxta qədər 15-dən çox doktorluq və namizədlik dissertasiyası işlərinə opponentlik etmişdir.

Akademik respublikamızın hüdudlarından kənarda da tanınır və elmi əsərlərindən istifadə olunur. Onun ciddi təşkilatçılıq fəaliyyəti sayəsində rəhbərlik etdiyi Bioresurslar İnstitutunda son 15 ildə 6 nəfər elmlər doktoru, 21 nəfər fəlsəfə doktoru yetişdirilmişdir.

Tariyel Talıbov AMEA Botanika İnstitutunda 2013-2014-cü illərdə fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini, 2016-2018-ci illərdə isə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda fəaliyyət göstərən “Botanika” və “Fiziki kimya” üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılan Dissertasiya Şurasının sədri olmuşdur.

2005, 2010 və 2015-ci illərdə 12 saylı Şərur Seçki Dairəsindən III, IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilən alim muxtar respublikanın ictimai həyatında fəal iştirak edir.

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi 2 layihənin qalibi olmuş və layihə müvəffəqiyyətlə yerinə yetirilmişdir. Ümumdünya Təbiəti Mühafizə Fondunun (ÜDTMF-WWF) elan etdiyi layihə onun rəhbərliyi ilə artıq yerinə yetirilmişdir. ÜDTMF Qafqaz ekoregionu üzrə Azərbaycan Respublikasından 2006-cı ildən indiyə kimi biomüxtəlifliyin mühafizəsi üzrə ekspert şurasının üzvü olan akademik şuranın Bakı, Tbilisi və Berlində keçirilən vaxtaşırı toplantılarında iştirak etmişdir. 10 oktyabr 2014-cü ildə Qafqaz ekoregionunda bəbirin monitorinqinə dair apardığı uğurlu və fundamental tədqiqatlara görə ÜDTMF tərəfindən xüsusi sertifikat və döş nişanı ilə təltif edilmişdir. Hazırda alim həmin fondun Naxçıvan Muxtar Respublikası ərazisində “Cənubi Qafqazda bəbirlərin mühafizəsi” layihəsinə rəhbərlik edir.

Çoxillik səmərəli elmi, elmi-təcrübi və təşkilatçılıq fəaliyyəti bir çox fəxri adlarla, təltif və mükafatlarla yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 3 avqust tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar “Yubiley qızıl medalı” ilə təltif olunmuşdur. Bundan başqa, alim təbiət elmləri sahəsində əldə edilmiş mühüm əhəmiyyətli, fundamental və tətbiqi elmi nəticələrə görə 15 avqust 2015-ci ildə AMEA-nın Həsən bəy Zərdabi adına mükafatına layiq görülmüşdür.

Görkəmli alim, tanınmış pedaqoq Tariyel Talıbov sadə, təvazökar, xeyirxah və nəcib insani keyfiyyətlərə, qeyri-adi elmi və təşkilatçılıq qabiliyyətinə malik olduğundan muxtar respublikada böyük nüfuz və hörmət qazanmışdır.

*Tariyel Talıbovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona sağlam və mənalı ömür, yeni-yeni uğurlar arzulayırıq.*

**Elşad QURBANOV**
***Bakı Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor***
***“Xalq qəzeti”, 21 fevral 2019-cu il***

# Enerji təhlükəsizliyi muxtar respublika iqtisadiyyatının inkişaf təməlidir

*Naxçıvan Muxtar Respublikasında enerji təminatı bu gün özünün yeni inkişaf mərhələsindədir. Bu sahənin inkişaf etdirilməsi istər ölkə başçısı, istərsə də muxtar respublika rəhbərinin fəaliyyətində hər zaman prioritet istiqamətlərdən olub. Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılıb.*



Bu dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılıb, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülüb.

Xüsusilə son illər istifadəyə verilən yeni su elektrik stansiyaları tələbatın dayanıqlı şəkildə ödənilməsində və ixrac imkanlarının yaranmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, ölkə Prezidentinin iştirakı ilə Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan yeni su elektrik stansiyası, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Azərbaycanda ilk derivasiyatipli 22 meqavat güclü Biləv Su Elektrik Stansiyası, 20,5 meqavat güclü “Arpaçay-1” və 1,4 meqavat güclü “Arpaçay-2” Su Elektrik stansiyaları, 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 239,4 meqavatdır.

Dünyada karbohidrogen mənşəli enerji ehtiyatlarının getdikcə azalması və onların qeyri-bərabər paylanması hazırda ölkələr qarşısında alternativ enerji mənbələri əldə etmək zərurətini qlobal məsələyə çevirib. Çünki dünya təcrübəsi də göstərir ki, enerji asılılığı iqtisadi və milli təhlükəsizlik məsələlərinə birbaşa təsir edən, eyni zamanda bir ölkənin müstəqilliyini təhdid altına alacaq güclü rıçaq hesab olunur. Bu mənada, qlobal gücləri güclü edən əsas vasitənin də enerji ehtiyatı olduğu bir daha öz təsdiqini tapır. Məhz bu baxımdan son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda alternativ və bərpaolunan enerji mənbələrindən maksimum istifadəyə hesablanmış mühüm layihələrin həyata keçirilməsi böyük əhəmiyyəti ilə seçilir.

Nəzərə alaq ki, Naxçıvan Muxtar Respublikasının əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Ötən dövrdə belə mənbələrdən istifadə energetika sektorunda davamlı inkişafı təmin edib, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində müasir infrastruktur yaradılıb. Görülmüş işlərin nəticəsidir ki, bu gün muxtar respublikada Günəş və Su Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 70 faizindən çoxunu təşkil edir. Bununla yanaşı, diyarımızda yeni elektrik stansiyalarının tikintisi və layihələndirilməsi işləri davam etdirilir. Belə ki, hazırda 36 meqavatlıq derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri davam etdirilir, gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyası və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması, Naxçıvan Günəş Elektrik Stansiyasının genişləndirilərək gücünün 30 meqavata qədər artırılması üçün layihə işləri hazırlanır. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb.

Yuxarıda da qeyd etdiyimiz kimi, muxtar respublikanın enerji təhlükəsizliyi ölkə başçısının daim diqqət göstərdiyi məsələlərdən biri olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər barədə demişdir: ***“Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb... Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında, bəlkə də, yeganə belə bir hal olacaqdır. Şadam ki, o cümlədən Günəş Elektrik Stansiyası tikilib, su elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır”.***

Dövlət başçısının da qeyd etdiyi kimi, artıq qədim diyarda Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Bu fikirlər bir daha təsdiq edir ki, həqiqətən də, enerji təhlükəsizliyi iqtisadi inkişafın əsas şərtidir. Çünki enerji mənbələri olmadan heç bir sahəni inkişaf etdirmək, deməli, həm də davamlı iqtisadi inkişafı təmin etmək mümkün deyil. Muxtar respublikada bərpaolunan enerji mənbələrinin sayının artması və yaxın gələcəkdə enerji təminatının 100 faiz bu yolla ödənilməsi məhz muxtar respublika iqtisadiyyatının dayanıqlılığını şərtləndirən ən mühüm amil olacaq.

**Səbuhi HƏSƏNOV**

*Muxtar respublikada aqrar bölmə daim diqqət mərkəzində saxlanılır. Bu sahənin inkişafına dövlət tərəfindən dəstək verilir, müvafiq qanun və sərəncamlar qəbul olunmaqla kənd təsərrüfatına investisiya qoyuluşu ilbəil artırılır.*

# İstehsalçılara dövlət qayğısı artıb

Son illər aqrar bölmədə çalışan fermer və torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli dövlət qayğısının nəticəsidir ki, bu sahəyə olan maraq durmadan artır.

Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağları dövlət tərəfindən hər hektar sahə üçün 40 manat, bundan başqa, buğda istehsalçılarının maddi marağının artırılması və onların stimullaşdırılması ilə əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 noyabr tarixli Qərarına əsasən əkilən 1 hektar buğda sahəsi üçün əlavə olaraq 40 manat vəsaitin verilməsi təmin olunub. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə ayrılan vəsaitin 25 faiz artırılaraq 50 manata çatdırılması, taxıl əkini üçün verilən gübrə normasının 70 faizinin pulsuz ödənilməsi torpaq mülkiyyətçilərinə əlavə stimul verib.

2018-ci ilin payızında əkilmiş taxıl əkinlərinə dövlət tərəfindən nəzərdə tutulmuş miqdarda pulsuz azot gübrəsinin verilməsinə 1 fevral 2019-cu il tarixdən “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin mərkəzi və rayon bazalarında başlanılıb. Havaların mülayim keçməsini nəzərə alaraq sahələrə gübrənin səpini həyata keçirilir. Artıq taxıl istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən ayrılan 50 manat maddi yardımın da verilməsinə başlanılıb. Verilən vəsait istehsalçıların kart hesablarına köçürülüb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Böyük şəxsiyyətlərin, nəhəng ədəbi simaların, görkəmli elm və mədəniyyət xadimlərinin ömrü cismani yaşları ilə deyil, kamil şəxsiyyət olması, vətənpərvərliyi, xalqına və Vətəninə təmənnasız xidmət edən nadir yaradıcılıq irslərinin həmişəyaşarlığı ilə ölçülür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu ədəbi-mədəni irsə tükənməz qayğısı, onu, sözün əsl mənasında, ümumxalq xəzinəsinə çevirməsi və dünyada təbliği istiqamətində gördüyü işlər isə tarixdə əbədi yaşayacaq.*



**Cəlil Məmmədquluzadə – 150**

# 150 yaşlı həmişəyaşar müasirimiz

Görkəmli dövlət xadiminin bu müdrik siyasəti mənəvi irsə varisliyin unikal nümunəsi kimi bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2019-cu il 17 yanvar tarixli Sərəncamı da bunun daha bir bariz ifadəsidir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadimin anadan olmasının 150 illiyi ilə bağlı imzalanan sərəncamda deyilir: *"Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində Azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur".*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görkəmli yazıçı-publisistin yubileyinin muxtar respublikamızda keçirilməsi ilə bağlı imzaladığı Tədbirlər Planı da böyük ədibə yüksək ehtiramın ifadəsidir.

Görkəmli demokrat ədib, tanınmış yazıçı-publisist Cəlil Məmmədquluzadə (1869-1932) XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikrinin bayraqdarı, Azərbaycançılıq ideologiyasının yaradıcılarından biridir.

Məşhur yazıçı, böyük ictimai xadim ədəbiyyat tariximizə Azərbaycan ədəbiyyatında "kiçik hekayənin böyük ustadı", tənqidi-realist nəsrin banisi kimi düşmüşdür. XX əsrin əvvəllərindən bədii yaradıcılıqla ardıcıl məşğul olan böyük yazıçının "Poçt qutusu", "Usta Zeynal", "Dəllək", "İranda hürriyyət", "Fatma xala", "Qurbanəli bəy", "Quzu", "Nigarançılıq", "Konsulun arvadı" və sair hekayələri bu gün də bədii nəsrimizin unikal nümunələri hesab edilir. Cəlil Məmmədquluzadənin sovet dövrü hekayələrində, o cümlədən "Taxıl hakimi", "Hamballar", "Oğru inək" kimi bədii nümunələrdə cəmiyyətin əyintiləri və eybəcərlikləri diqqətə çatdırılmışdır.

Mirzə Cəlil Azərbaycan dramaturgiyası tarixində tragikomediya mərhələsinin yaradıcısı kimi iz qoymuşdur. Ədibin canlı xalq dili, Azərbaycan danışıq üslubu ilə seçilən əsərləri mühüm ədəbi mərhələni təşkil edir. Onun ilk dram əsəri, ilk alleqorik və mənzum pyesi "Çay dəsgahı"dır. Ədibin komediyaları fəciəviliyi ilə də seçilir. Məşhur "Ölülər" əsəri Azərbaycan tragikomediyasının zirvəsini təşkil etməklə, bütövlükdə, türk-müsəlman dünyasını cəhalət və mövhumata qarşı mübarizəyə səsləyən qüdrətli əsərdir. Ədibin "Anamın kitabı" məşhur dramına isə görkəmli mirzəcəlilşünas, akademik İsa Həbibbəyli "Azərbaycançılığın ədəbi manifesti", "Azərbaycana aid olmayan fərqli düşüncələrə malik üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramı" elmi-bədii dəyərini vermişdir. "Kişmiş oyunu" və "Kamança" kimi pyesləri öz ideyasına görə bu gün də aktuallığını, ədəbi-bədii dəyərini qorumaqdadır. Mirzə Cəlilin sovet hakimiyyəti illərində yazdığı, sovet cəmiyyətinin bütün reallıqlarını və eybəcərliklərini əks etdirən "Dəli yığıncağı" pyesi, həmin dövrə məxsus, ilk dəfə akademik İsa Həbibbəyli tərəfindən tapılıb elmi-ədəbi ictimaiyyətə təqdim edilən "Ər" pyesində, "Lal", "Lənət", "Oyunbazlar" səhnəciklərində milli cəhalət, gerilik və nadanlıq tənqid hədəfinə çevrilmişdir.

Ustad Mirzə Cəlilin adı mətbuat tariximizə, xüsusilə qızıl hərflərlə həkk olunmuşdur. O, Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuatımızı, Azərbaycan mühərrirlik sənətini davam və inkişaf etdirərək onu yeni, yüksək mərhələyə çatdırmışdır. Gözəl dramaturq, ustad hekayənəvis olmasaydı belə, onun mollanəsrəddinçi publisist fəaliyyəti şifahi xalq ədəbiyyatının özü qədər əbədiyaşar millilik, şərqlilik epopeyasıdır.

1902-ci ildə dərc olunan ilk məqaləsi ilə ömürlük mətbuat dünyasına bağlanan, jurnalistikanı həyatının əsas qayəsi edən Cəlil Məmmədquluzadə "Şərqi-Rus" qəzetindəki əməkdaşlıq və müvəqqəti redaktorluq fəaliyyəti ilə zəngin qəzetçilik və naşirlik məktəbi keçmiş, Şərq istibdadına və cəhalətinə qarşı ən kəskin mübarizə silahı olan ilk satirik jurnal – "Molla Nəsrəddin"in nəşri ilə satirik publisistikanın təməlini qoymuş, ədəbiyyat və mətbuat tariximizdə böyük bir ədəbi dövr, ədəbi məktəb yaratmışdır.

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 20 aprel 1906-cı ildə Tiflisdə nəşr olunmağa başlayan jurnal 25 il ərzində Qafqaz xalqlarının, bütövlükdə, Şərq dünyasının, Azərbaycanın milli oyanış və dirçəlişində mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının, satirik publisistikasının ideya-sənət məbədidir. Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalını "Azərbaycan xalqının istiqlal kitabı", mollanəsrəddinçi yazıçı və şairlərin "əsərlərinin çoxcildlik külliyyatı" adlandırmışdır. "Molla Nəsrəddin", eyni zamanda satirik publisistika məktəbidir. İdeya-bədii istiqamətvericiliyi ilə mollanəsrəddinçilərin ağsaqqal qələm yoldaşı olan ustad Mirzə Cəlilin jurnaldakı çoxsaylı məqalə və felyetonları hər zaman öz aktuallığını qoruyan, cəmiyyətdəki eybəcərlikləri, nöqsanları ifşa edən satirik-publisistika nümunələridir.

Ədibin publisistik fəaliyyətini səciyyələndirən əsas istiqamətlərdən biri də onun yeni türk əlifbası ilə çıxan ilk türk qəzeti, Yeni Türk Əlifba Komitəsinin orqanı olan "Yeni yol" (1922-1939) qəzetindəki fəaliyyətidir. Qəzetin 20 iyun 1923-cü il tarixli sayına qədər ilk baş redaktoru kimi fəaliyyət göstərən ədib sonralar – 1 may 1924-cü ilədək də bu mətbu orqanın fəaliyyətində əvəzsiz xidmətlər göstərmişdir. Cəlil Məmmədquluzadənin "xalqın ürəyindən qopan publisistika"sında onun "Yeni yol" qəzetindəki yaradıcılığının əsas və önəmli yeri var.

Yüksək bədiilik, obrazlılıq, səciyyəvi və tipik obrazlar qalereyası, hədsiz tələbkarlıq və böyük ideallar uğrunda məqsədyönlü mübarizə Mirzə Cəlilin realist publisistikasının başlıca keyfiyyətləridir. Sadə, anlaşıqlı danışıq dili, fikir sərrastlığı və aydınlığı, toxunulan problemlərin kəskinliyi və konkretliyi dahi ədibin yaradıcılığının əsas məziyyətlərindəndir. Təsirli ifadə vasitələri, təhkiyədəki dəqiqlik və inandırıcılıq, təsvirlərin yığcamlığı və təsir gücü, xarakterlərin dolğunluğu, maraqlı psixoloji məqamlar – bütün bunlar həmin publisistik əsərləri oxunaqlı edən, hər dəfə daha dərin və yeni bir məna kəsb etmələrinə rəvac verən başlıca vasitələrdir. Zəngin həyat müşahidəçiliyi, mövzular aləminin genişliyi, sənətkarlıq boyalarının əlvanlığı, dil orijinallığı və üslub çoxcəhətliliyi Mirzə Cəlil publisistikasının əsas leytmotividir.

Ən ağır məşəqqətlərə, mənəvi iztirablara, təhqirlərə məruz qalmasına baxmayaraq, öz qələmi ilə xalqının xoşbəxtliyi uğrunda əzmlə çarpışan görkəmli dramaturq, yazıçı-publisistin zəngin, şərəfli həyat və yaradıcılıq yolu bu gün hər bir qələm sahibi üçün əsl məktəbdir. Çünki böyük ədib Cəlil Məmmədquluzadənin bütün həyatı və yaradıcılığı Azərbaycançılıq idealının həyata keçirilməsinə həsr olunmuşdur. Onun milli istiqlal arzuları, ədibin əsərləri və ideyaları müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir.

Əsərləri ən çox nəşr və tədqiq olunan ədib də elə Cəlil Məmmədquluzadədir desək, – yanılmarıq. Ədəbiyyatımızda Mirzə Cəlil yaradıcılığına dəfələrlə müraciət olunmuş, onun həyat və yaradıcılığı Məmməd Cəfər, Əziz Şərif, Qulam Məmmədli, Əziz Mirəhmədov kimi tanınmış ədəbiyyatşünaslarımız tərəfindən müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli isə Cəlil Məmmədquluzadə irsinin və şəxsiyyətinin öyrənilməsində ədəbiyyatşünaslıqda müasir mirzəcəlilşünaslıq məktəbinin təməlini qoymaq kimi mühüm bir tarixi missiyanı həyata keçirmişdir.

Görkəmli yazıçı və publisistin elmi tədqiqində və dünyəvi təbliğində onun ədəbi irsinə göstərilən dövlət qayğısı da müstəsna rol oynamışdır. Təsadüfi deyil ki, bu gün də öz əməlləri və işıqlı ideyaları ilə müasirimiz olan görkəmli yazıçının adı respublikamızda əbədiləşdirilmiş, Bakıda, Naxçıvan şəhərində, Cəlilabad rayonunda heykəlləri ucaldılmışdır. Onun 100, 125, 140 illik yubileyləri geniş qeyd olunmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Musiqili Dram Teatrı görkəmli ədibin adını daşıyır. Böyük yazıçının Bakıda və Naxçıvan şəhərlərində ev-muzeyləri, Cəlilkənddə və Nehrəmdə Xatirə muzeyləri fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 23 yanvar tarixdə imzaladığı "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında" Sərəncama əsasən jurnalın ilk nömrəsinin işıq üzü görməsinin 100 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə Cəlil Məmmədquluzadənin də bədii-publisistik əsərləri latın qrafikalı Azərbaycan əlifbası ilə yenidən kütləvi şəkildə nəşr olunub oxucuların ixtiyarına verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"nda ədibin "Hekayələr"inin yer alması da Mirzə Cəlil yaradıcılığının gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

*Mirzə Cəlil yaradıcılığına cild-cild monoqrafiyalar, çoxillik elmi tədqiqatlar həsr olunsa da, bu tükənməz mənəvi xəzinənin dərinliyinə varmaq üçün gələcək tədqiqatçılar də öz sözlərini deyəcəklər. Cəlil Məmmədquluzadə öz işıqlı ideyaları, xalqına və Vətəninə tükənməz məhəbbəti ilə müstəqil Azərbaycanın inkişaf və tərəqqisi yolunda müasirimiz kimi həmişə bizimlə yanaşı addımlayacaq. Mirzə Cəlil şəxsiyyətinə və irsinə verilən ən yüksək qiymət isə ümummilli liderimiz Heydər Əliyevə məxsusdur:* ***"Cəlil Məmmədquluzadənin böyüklüyü həm şəxsi həyatında və fəaliyyətində, həm yaradıcılığında ondan ibarətdir ki, o, ... ümumbəşəri dəyərləri dərk edib, öz milliliyi ilə öz ana dili ilə, öz milli kökləri ilə birləşdirərək Mirzə Cəlil – Cəlil Məmmədquluzadə olmuşdur".***

**Mehriban SULTAN**
***filologiya üzrə fəlsəfə doktoru***

# *"Cəlil Məmmədquluzadənin həyat və fəaliyyəti"* mövzusunda interaktiv dərs keçilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq Cəlil Məmmədquluzadənin 150 illik yubileyi muxtar respublikamızda geniş şəkildə qeyd olunur. Bu tədbirlərin davamı olaraq 2019-cu il fevralın 21-də Naxçıvan şəhərində yerləşən Cəlil Məmmədquluzadənin ev-muzeyində "Cəlil Məmmədquluzadənin həyat və fəaliyyəti" mövzusunda interaktiv dərs keçilib.*





*Kəngərli rayon Qarabağlar kənd 1 nömrəli tam orta məktəb*

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri Ramiz Qasımov interaktiv dərsdə qeyd edib ki, çoxəsrlik tarixə malik olan Azərbaycan ədəbiyyatının inkişafında böyük Azərbaycan yazıçısı və dramaturqu Cəlil Məmmədquluzadənin mühüm xidmətləri olmuşdur.

Görkəmli yazıçı-publisistin həyatı haqqında ətraflı məlumat verilərək bildirilib ki, sovet dövründə yaradıcılığı və şəxsiyyəti ideologiyanın təhriflərinə məruz qalan Cəlil Məmmədquluzadənin irsi ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində toplanılaraq nəşr edilmiş, ciddi tədqiqatların obyekti olmuşdur. Görkəmli yazıçının adına küçələr verilmiş, Bakıda, Cəlilabad və doğma vətəni Naxçıvan şəhərlərində əzəmətli heykəlləri ucaldılmışdır. Ədibin ölməz əsərləri daim teatrların repertuarlarında olmuş, çoxsaylı əsərləri səhnələşdirilərək böyük tamaşaçı rəğbəti qazanmışdır. Dahi yazıçının Naxçıvan şəhərindəki ev-muzeyi ümummilli lider Heydər Əliyevin 1998-ci il 19 iyun tarixli Sərəncamına əsasən yaradılmışdır. Həmçinin Cəlil Məmmədquluzadənin vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə xatirə muzeyləri istifadəyə verilmişdir.

Ədibin vətəni Naxçıvan şəhərindəki ev-muzeyi, adını daşıyan Naxçıvan Dövlət Musiqili Dram Teatrı və teatr binasının qarşısındakı əzəmətli heykəli Cəlil Məmmədquluzadə şəxsiyyətini əbədiləşdirən mədəni ünvanlardır. Ustad Cəlil Məmmədquluzadənin yubileylərinin keçirilməsi də ədibə göstərilən ehtiramın daha bir nümunəsidir. Ölməz ədibin övladı qədər sevdiyi və bütün ömrünü verdiyi "Molla Nəsrəddin" jurnalının latın qrafikalı Azərbaycan əlifbası ilə yeni tərtibatda, nəfis şəkildə çap edilməsi də müstəqillik dönəmində ədibin irsinə və şəxsiyyətinə göstərilən misilsiz ehtiramı nümayiş etdirir.

Cəlil Məmmədquluzadənin yubileylərinin keçirilməsi ədibin vətəni Naxçıvan Muxtar Respublikasında da diqqətdə saxlanılmış, əbədiyaşar sənətkarın adı və xatirəsi daim əziz tutulmuş, əsərləri, o cümlədən ikicildlik "Seçilmiş əsərləri" yeni tərtibatda nəşr edilmişdir. Görkəmli yazıçının həyat və fəaliyyətinə həsr edilmiş simpozium və elmi konfranslar keçirilmiş, ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik "Naxçıvan" jurnalının bir nömrəsi Cəlil Məmmədquluzadəyə həsr olunmuş, adını daşıyan muzeylərin ekspozisiyası zənginləşdirilmişdir. Bununla yanaşı, ədibin "Hekayələr"i Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilmişdir.

İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## *“Xocalını unutma!”* adlı rəsm sərgisinin açılışı olub



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş “Xocalını unutma!” adlı rəsm sərgisi təşkil edilib.*

Əvvəlcə “Xocalıya qayıdış” adlı videoçarxa baxış olub. Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək diqqətə çatdırıb ki, Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir. Ona görə də Azərbaycan xalqı və bütün bəşəriyyət bu amansız qətliamı heç vaxt unutmayacaq. Bu faciənin bədii əsərlərdə, kinofilmlərdə, musiqi və rəsm əsərlərində gələcək nəsillərə, eyni zamanda dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər görülür. Bu gün Xocalıya həsr edilən sərgidə naxçıvanlı rəssamların müxtəlif janr və üslubda nümayiş etdirilən əsərləri faciəni göz önündə canlandırır və “Xocalıya ədalət!” şüarını canlı şəkildə əks etdirir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi, şair Asim Əliyev, Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz, İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun mədəniyyət attaşesi Məhəmmədrza Pakravan, Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov çıxış edərək ermənilərin törətdikləri Xocalı soyqırımına öz münasibətlərini bildirib və faciə qurbanlarının xatirəsinin əbədi yaşayacağını vurğulayıblar. Şairlərdən Elxan Yurdoğlu, Əbülfəz Ülvi, Vəli Qaraxan, Tofiq Qəbul Xocalıya həsr olunan şeirlərini qiraət ediblər. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Cəlil İsmayılsoy tarda “Qarabağ şikəstəsi”ni ifa edib.

Sonda sərgiyə baxış olub. Sərgidə 22 rəssamın 40 əsəri nümayiş olunur. Həmin rəsm əsərləri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Sərgi fevralın 26-dək davam edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## *“Diqqət, piyada!”* devizi altında aksiya

*Bir qrup gəncin təşəbbüsünə əsasən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi ilə birgə keçirdiyi yol hərəkətinin təhlükəsizliyi ilə bağlı aksiyaya 50-yə yaxın tələbə-gənc qatılıb.*



Aksiya başlanmazdan əvvəl Naxçıvan şəhərindəki Gənclər Mərkəzində təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun əməkdaşı Fərid Seyidov və nazirliyin əməkdaşları son illərdə nail olunmuş ictimai-siyasi sabitliyin və əmin-amanlığın muxtar respublikamızda yüksək uğurlar qazanılmasına, insanların həyat şəraitinin xeyli yaxşılaşmasına müsbət təsirindən danışıblar.

Qeyd olunub ki, həyata keçirilən tədbirlər sırasında yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulması da xüsusi vurğulanmalıdır. Bunun ifadəsidir ki, paytaxt şəhərimiz Naxçıvandan muxtar respublikamızın bütün rayon mərkəzlərinə, kənd yaşayış məntəqələrinə müasir tələblərə cavab verən yollar çəkilib, hazırda Culfa-Ordubad magistral yolu yenidən qurulur. Belə tədbirlər avtomobillərin, sərnişin və piyadaların təhlükəsizliyini təmin etmək məqsədi daşıyır.

Vurğulanıb ki, muxtar respublikamızda şəxsi avtomobillərin sayının gündən-günə artması avtomobil yollarında hərəkətin təhlükəsizliyinə ciddi əməl olunmasını daha da zəruri edib. Bu prosesdə avtomobil sürücüləri ilə yanaşı, piyadaların da üzərinə mühüm vəzifələr düşür.

Diqqətə çatdırılıb ki, aidiyyəti qurumlar tərəfindən yollarda müxtəlif nişanlar qoyulub, piyada keçidləri müəyyənləşdirilib. Yol hərəkəti qaydalarına əməl etmək üçün, ilk növbədə, bu qaydaları bilməyin vacibliyi nəzərə alınaraq belə tədbirlərin keçirilməsi diqqətdə saxlanılır. Unutmaq olmaz ki, muxtar respublikamızda yol hərəkəti mədəniyyətinə əməl olunmasında yaxından iştirak etmək hər kəsin vətəndaşlıq borcudur.

Tədbirdə yolun hərəkət hissəsinin yalnız piyada keçidi vasitəsilə keçilməsi, piyadaların məsuliyyəti, sürücülərin üzərinə düşən vəzifələr və digər məsələlər barədə danışılıb.

Sonra gənclər şəhərimizin bir sıra prospekt və küçələrində yol hərəkəti qaydalarına əməl olunmasını izləyiblər. Müşahidə zamanı bu qaydalara əməl edən piyadalara minnətdarlıq bildirilib, qaydaları pozanlarla söhbətlər aparılıb, onlara Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi tərəfindən hazırlanmış “Yol hərəkəti təhlükəsizliyinə dair piyadalar üçün buklet”lər təqdim olunub.

**Xəbərlər şöbəsi**

*2018-ci il ərzində muxtar respublika üzrə nümunəvi sərnişindaşıma xidməti göstərən sürücülərə Naxçıvan Avtobus Parkında qiymətli hədiyyələr təqdim edilib.*

## Nümunəvi sürücülərə qiymətli hədiyyələr verilib



Bununla bağlı keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi Əli Hüseynəliyev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində əldə olunan dinamik inkişaf digər sahələr kimi, nəqliyyat sahəsinə də öz müsbət təsirini göstərib, bu istiqamətdə həyata keçirilən tədbirlər insanların rahatlığının təmin edilməsinə əlverişli zəmin yaradıb. Ötən müddət ərzində Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin maddi-texniki bazası möhkəmləndirilib, yeni gətirilmiş avtobusların hesabına sərnişindaşıma xidmətinin keyfiyyəti daha da yüksəldilib. Hazırda muxtar respublika üzrə 313 avtobus, 496 taksi olmaqla, ümumilikdə, 800-dən artıq avtonəqliyyat vasitəsilə sərnişinlərə nümunəvi xidmət göstərilir.

Beynəlxalq sərnişindaşıma xidmətinin də diqqət mərkəzində saxlanıldığını qeyd edən Əli Hüseynəliyev İran İslam və Türkiyə respublikalarının şirkətləri ilə bağlanmış müqavilələrin, həmçinin Naxçıvan-Bakı-Naxçıvan marşrutunun əhəmiyyətindən bəhs edib. Vurğulayıb ki, muxtar respublika sakinlərinin paytaxt Bakı şəhəri ilə əlaqəsinin daha da genişləndirilməsi və vaxt itkisinin azaldılması məqsədilə Naxçıvan-Bakı-Naxçıvan marşrutunun axşam reysləri də təşkil edilir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanına əsasən ötən il noyabr ayının 1-dən etibarən avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına hüquq verən sürücülərə lisenziyaların verilməsinə başlanılıb. Ötən müddət ərzində 600-dən artıq sahibkar lisenziya ilə təmin olunub.

Diqqətə çatdırılıb ki, Dövlət Nəqliyyat Xidməti tərəfindən mütəmadi olaraq nümunəvi xidmət göstərən, eləcə də ucqar dağ və sərhəd kəndlərinə işləyən sürücülərin fəaliyyətləri qiymətləndirilir, onlara lazımi köməklik göstərilir.

Sonra 2018-ci il ərzində əhaliyə nümunəvi sərnişindaşıma xidməti göstərən sürücülərə qiymətli hədiyyələr təqdim edilib.

Babək rayonu, Gərməçataq kənd marşrutunun sürücüsü Qurban Behbudov yaradılan şəraitə, göstərilən qayğıya görə bütün sürücülər adından dövlətimizə minnətdarlıq edib.

Sonda tədbir iştirakçıları Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyini ziyarət edib, buradakı eksponatlarla tanış olublar.

**✍ Nail ƏSGƏROV**

## *Beynəlxalq Ana Dili Günü* qeyd edilib



*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Beynəlxalq Ana Dili Günü ilə bağlı tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Rəşad Xudiyev çıxış edərək bildirib ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsas amili kimi daim diqqət mərkəzində saxlamışdır. Hələ sovet hakimiyyəti dövründə, 1978-ci ildə Moskvanın təzyiqlərinə baxmayaraq, ümummilli lider Heydər Əliyev böyük cəsarət göstərərək Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət dil siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının qəbul etdiyi çoxsaylı dövlət sənədləri Azərbaycan dilinə və dilçiliyinə diqqət və qayğının ifadəsi olmaqla, həm də bu sahədə görüləcək vacib işlərin müəyyənləşməsinə və həyata keçirilməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 1 noyabr 2018-ci il tarixli Fərmanı müstəqil ölkəmizdə dövlət dilinin inkişafı istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamıdır.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında da dövlətimizin dil siyasəti uğurla həyata keçirilir. İstər orfoepiya, istərsə də orfoqrafiya qaydalarından düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhərində “Ana dili” abidəsinin ucaldılması da ana dilimizə ehtiramın ifadəsidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyev, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Səyyar Məmmədov çıxış ediblər.

Dilimizə həsr edilmiş şeirlər bədii qiraət olunub, kitabxanada təşkil olunmuş kitab sərgisinə baxılıb.

**Əli RZAYEV**

### Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi

### *Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə dövlət vergi orqanlarında vakant olan vəzifələrin tutulması üçün müsabiqə elan edir*

Müsabiqədə iqtisadiyyat, hüquq və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsilə malik, yaşı 35-i keçməmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 4 mart 2019-cu il tarixdən 4 aprel 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında (*www.dqmk.nmr.az*) “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini “şəxsi kabinet”ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi*

*2. Ali təhsil barədə diplom (Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə)*

*3. Əmək kitabçası (son iş yeri barədə qeydin olması şərti ilə)*

*4. Hərbi bilet*

*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Namizədlər elektron ərizəni təsdiq etmək üçün 70 manat məbləği “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə şəxsən müraciət edə bilərlər.

Sənəd qəbulu zamanı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

| Vəzifə kodu | Struktur bölmə | Vakant yerlər |
|---|---|---|
| 93900 | Şərur Rayon Vergilər İdarəsi | 3 |
| 93200 | Babək Rayon Vergilər İdarəsi | 4 |
| 93400 | Ordubad Rayon Vergilər Şöbəsi | 5 |
| 93300 | Culfa Rayon Vergilər Şöbəsi | 4 |
| 93600 | Kəngərli Rayon Vergilər Şöbəsi | 5 |
| 93500 | Şahbuz Rayon Vergilər Şöbəsi | 6 |
| 93700 | Sədərək Rayon Vergilər Şöbəsi | 1 |
| **Cəmi:** | | **28** |

**Qeyd:** Müsabiqəni müvəffəqiyyətlə keçmiş, sahibkarlıq fəaliyyətilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar. Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

***Əlaqə telefonu: (036)-545-68-04***

*İtmişdir*

Əhmədov Səfər Mikayıl oğlunun adına verilmiş JN-93A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 145